Aqrar Xidmətlər Agentliyi

# Avstraliya Şırımlı Yastıcası
## (Icerya purchasi Maskell)



088-588
axa.gov.az

## Zərərverici haqqında

Dişi fərdinin uzunluğu 6 mm olub, bədəni ovalşəkilli və çoxsaylı qara tükcüklərlə örtülmüşdür, üst tərəfdən qırmızımtıl-qəhvəyi, alt tərəfdən parlaq narıncı rəngdədir. Erkək fərdin bədəni tünd qırmızı, qanadları bozumtul rəngdədir.Digər yastıcalardan fərqli olaraq,ayaqlarını və qismən hərəkətliliklərini bütün ömrü boyu saxlayırlar.Yazda temperatura 17-18° C-ə çatdıqda yumurtalardan sürfələrin kütləvi çıxması başlayır. Azərbaycanda 2-3 nəsil verməsi qeyd olunur. Ən çox əkin materialı və meyvələrlə yayılırlar.

## Mübarizə tədbirləri

- Karantin tədbirlərinə ciddi əməl olunmalı;
- Erkən yazda tumurcuqlar açanadək mineral yağ emulsiyaları ilə ağaclar çilənməli; Zərərverici tut ağaclarında aşkar edilərsə, onların budanıb bir yerdən başqa yerə aparılması qadağan edilməli;

-Yastıcaya qarşı mühüm bioloji mübarizə üsulu kimi yırtıcı radolia böcəyindən istifadə olunur. Bu böcək

yastıcanı bütün inkişaf fazalarında məhv edə bilir;

Bu zərərverici ilə yoluxmuş sahələrdən əkin materialının daşınması və sirayətlənmiş ölkələrdən əkin materialının gətirilməsi qadağandır.



## Zədəsi